vətən məhəbbəti, xalq məhəbbəti müqəddəsdir. O, Bakıda oturub Kəpəzi xatırlayır, Şuşanı xatırlayır.

Bu haman Şuşadır ki, nağıllarımızda, dastanlarımızda adı dildəndilə düşən, səsi tarixin uzaqlarından bu günə qədər gurlayıb gələn doğma Qarabağın qabarıq sinəsində bir pəhləvan qalxanı kimi əsr-əsr sərt və sarsılmaz dayanmışdır.

Bu haman Şuşadır ki, Vaqifin oynaq misraları, Natəvanın kədərli naləsi, Üzeyrin ölməz musiqisi orda yaranmış, Bülbülün dağ bulağı kimi təmiz cəh-cəhləri orda çağlayıb dörd bir yana yayılmışdır. Bu haman Şuşadır ki, yadelli işğalçılarla vuruşan vətən oğullarının onun sərt qayalarında hələ də ayaq izləri, acı tarixin əks-sədası var.

Şair Zeynal Cabbarzadənin bu kitabı, eləcə də bütün şeirləri ana yurdu, sevimli Azərbaycanı tərənnüm edir.

Rəsul Rza
1966

Vətən

VƏTƏNİM

Biri vətənə canım dedi,
Biri gözüm dedi,
Biri şirin sözüm dedi,
Hərə bir ad verdi,
Hərə bir şeydə gördü
Vətəni.
Mən səni,
Ey qədim, müqəddəs
torpağım,
Azərbaycanım,
nə canım,
nə gözüm
nə sözüm
çağırıram
Vətənim! Vətənim! –
deyə bağırıram.
Canım bu gün var,
Sabah yox.
Gözüm bu gün var,
Sabah yox.
Sözüm bu gün var,
Sabah yox,
Sən isə
həmişə varsan,
ulu babalardan
hələ doğulmamış,
Ancaq
doğulacaq,
Kötükcələrə
yadigarsan!

Müqəddəs beşiyim
Olmusan,
Əbədi məzarım
Olacaqsan mənim!
Vətənim, Vətənim,
Vətənim!

1967

MƏNƏ BELƏ GƏLİR Kİ...

Mənə belə gəlir ki,
Bütün dünya mənimdir.
Hər cli, hər ölkəsi
Öz doğma məskənimdir.
Amma, ellər içində
Bir ovuc torpağım var.
Bir ovuc torpağımda
Min cürə növrağım var,
Dövlətim, bayrağım var.
Səadətim, ağ günüm,
Hissim, həyəcanımdır,
Öz Azərbaycanımdır!

Mənə belə gəlir ki,
Mənim üçün yaranmış
Bütün dillər lisanlar.
Bir dildə anlayırlar
Bir-birini insanlar.
Hamısı gözəl, şirin,
Hamısı qədim, dərin...
Amma, dillər içində
Biri mənim öz dilim,
Şöhrətimdir, şanımdır.
Onun yurdu, məskəni
Öz Azərbaycanımdır!

Mənə elə gəlir ki,
Suların şır-şır səsi,
Bülbüllərin nəğməsi,
Böyük sənətkarların
Qəlb açan tərənəsi
Mənim mahnılarımdır,
Bu mahnılar içində
Şurum, rastım, segahım,
Min tərənə varımdır.
Bunlar mənim öz səsim
Ürəyimdir, canımdır,
Öz Azərbaycanımdır!

Mənə elə gəlir ki,
Dünyanın övladları
Mənim uşaqlarımdır.
Köklü bir ağacam ki,
Onlar milyon çiçəkli
Qolum, budaqlarımdır.
Amma, aralarında
Doğma üç övladım var.
Onların damarında
Axan mənim qanımdır
Beşikləri ürəyim,
Öz Azərbaycanımdır!

Mənə elə gəlir ki,
Günəş, Ay mənimkidir.
Anamız torpaq üstə
Min saray mənimkidir.
Yaradılan bu kəndlər,
Qurulan bu şəhərlər,
Çil-çıraqlı gecələr,
Al günəşli səhərlər,
Şiş dağları yaranlar,
Div güclü qəhrəmanlar,

Mənim vətəndaşımdır,
Deyərəm, qardaşımdır!
Fəxr edirəm mənimdir!
Çünki ellər içində
Al günəşli, işıqlı,
Ən gözəl, yaraşıqlı
Mənim öz Vətənimdir!

VƏTƏNİMİZ

Ürəyimiz, canımızsan,
Şöhrətimiz, şanımızsan,
Əziz, doğma anamızsan,
Gözəl, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

Başından çox duman keçmiş,
Xalqın günü yaman keçmiş,
Ağır, qanlı zaman keçmiş,
İndi, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

Qaranlığı çəkdin dara
Şəfəq saçdın hər diyara,
Pənah oldun məzlumlara,
Gözəl, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

Yenilməyən qüdrətin var,
Böyük adın, şöhrətin var,
Ağızlarda söhbətin var,
Gözəl, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

AZƏRBAYCANIM

Gecələr ulduz-ulduz,
Ötüb keçir karvanım.
Xəyalımdan getməyir
Doğma Azərbaycanım.
Ana yurdum, ana yurdum,
haraya uçub getsəm, bil, sən mənimsən.
Ana yurdum, ana yurdum,
a gözəl Azərbaycanım.

Nil gördüm Araz dedim,
Kürümdən olmaz dedim.
Dərin dəryalar üzdüm
Xəzərdən dayaz dedim.
Ana yurdum, ana yurdum,
haraya uçub getsəm, bil, sən mənimsən
Ana yurdum, ana yurdum,
a gözəl Azərbaycanım.

Quş uçar budağından,
Can gedər, otağından
Ürək dönməz, göz doymaz,
Öz ana torpağından.
Ana yurdum, ana yurdum,
haraya uçub, getsəm, bil, sən mənimsən.
Ana yurdum, ana yurdum,
a gözəl Azərbaycanım.

1965

BU ELLƏRDƏ

İl uzunu bahar olur
Bu ellərdə.
Şirin-şirin nübar olur
Bu ellərdə.
Bağçalarda açır çiçək!
Hər tərəfi gözəl, göyçək,
Aşıb, daşan sular olur
Bu ellərdə.

Nur çilənir dağa-daşa
Bu ellərdə.
Büsata et sən tamaşa
Bu ellərdə.
Azad insan çəkir əmək,
Hər bir arzu, hər bir dilək
Qeyrət ilə yetir başa,
Bu ellərdə.

BAKI

Göy sularda yelkən açan gəmilər
Ağ göyərçin ləpələrlə öpüşər.
Duman qalxar Xəzərimdən hər səhər
Qatar-qatar qağayılar ötüşər,
Üfüq yanar,
Al boyanar Bakımız!

Bakıya bax başdan-başa yaraşıq,
Qurban olum alovuna, oduna.
Öz Bakıma aləm aşıq, mən aşıq,
Odlar yurdu çox yaraşır adına,
Qədim qoca,
Başı uca Bakımız!

Abşeronun oxşarı var hilala,
Buruqların sulardadır meşəsi.
Görən deyir, əhsən burda calala!
Qoy eşitsin bütün aləm bu səsi:
Adlı, sanlı,
Sən ey şanlı Bakımız!

Axşam olar günəş yığar telini,
Yanar Bakı gecəsinin işığı.
Gənclər tutar bir-birinin əlini
Qoca Bakı, salamlar hər aşığı,
Ey işıqlı,
Yaraşıqlı Bakımız!

Maral gözlü qızları var həyalı,
Oğlanların boyu bənzər çinara.
Başdan alar hər baxanda xəyalı.
Çox elçilər gəlir bizim diyara,
Sözlü, sazlı,
Xoş avazlı Bakımız!
Hərdən coşur dəli xəzri qal olur.
Yaman şıltaq qılığı var Bakının.
Hərdən susur, quzu kimi lal olur,
İstisi var, ilığı var Bakının,
Sərin yeri,
Xoşbəxt elli Bakımız!

Suya düşür söyüdlərin salxımı
Sahilində mahnı səsi, tar səsi.
Bakı, Bakı şöhrətisən xalqımın,
Fərəhimsən qədim, odlar ölkəsi!
Ey hünərli,
Göy xəzərli Bakımız!

BAKI

Parıl-parıl parıldayır küçələr
Ötən bulud səpələyib yağışı.
Mənim Bakım gözəl olur gecələr
Sinəsində milyon işıq naxışı.

Pəncərələr açılmışdır laybalay
Gəl, qulaq as şirin-şirin hər səsə.
Mahnımızla göydə saysız ulduz, ay,
Səhərədək sanki gəlir həvəsə.

Xəzərimin sularına sal nəzər,
Ağ işıqlar elə bil ki, ilandır.
Sahilində oğlan gəzər, qız gəzər,
Ceyran, Maral deyərsən ki, yalandır.

Qız qalası Bakımızın vüqarı,
Bilinməyir hələ neçə yaşı var.
Qız qalası, qatar-qatar divarı,
Qız qalası, oyuq-oyuq daşı var.

Parıl-parıl parıldayır küçələr
Ötən bulud səpələyib yağışı.
Mənim Bakım gözəl olur gecələr,
Sinəsində milyon işıq naxışı.

QUBA

Hüsnündən doymuram, sənə vurğunam
Qoynunda hər dəfə gəzəli Quba,
Məni qınamasın dostlar, tanışlar,
Desəm yer üzünün gözəli Quba.

Dağların qarlıdır, bağların barlı,
Qızın alma yanaq, oğlun vüqarlı,
Hər ağac kölgəsi qavallı, tarlı,
Altında min məclis düzəlir Quba.

Səndə gözəl olur bahar, payız, qış,
Görən min yol demiş torpağa alqış,
Hüsnünə zövq ilə vurub min naxış,
Ana təbiətin öz əli Quba.

Sinən başdan-başa güldür, çiçəkdir,
Binalar, küçələr neçə qəşəngdir,
Günlərin daha da xoş keçəcəkdir,
Alması ətirli, məzəli Quba
Azərbaycanımın gözəli Quba!

LƏNKƏRAN

Tarlalar yam-yaşıl,
Örpəyi məxmər.
Hər səhər salamlar
Səni göy Xəzər.
Şöhrətin var sənin,
Söhbətin var sənin
Bizim diyarda,
Bizim diyarda.
Dağların baş-başadır,
Bağların tamaşadır.
Gözəl Lənkəran
Gözəl Lənkəran.

Hər evdən səs gəlir:
"Ol mənə mehman".
İç mənim ətirli,
Rəngli çayımdan.
Novrağın var sənin
Sorağın var sənin
Bizim diyarda,
Bizim diyarda.
Bəh, bəh, limonun sarı,
Yaşıl çay tarlaların,
Gözəl Lənkəran,
Gözəl Lənkəran.

Hər tağdan min nübar,
Min bəhər gəlir.
Qardaş ellərindən
Şad xəbər gəlir.
Çatdıqca nübarın,
Hər yerdə dostların
Açıb süfrəni,
Anırlar səni.
Sərvətin gəlir xoşa
Deyirlər var ol, yaşa!
Sağ ol, Lənkəran,
Var ol, Lənkəran!

SUMQAYIT

Xəzərin sahilində,
Azərbaycan elində
Şəhər var, yaraşıqlı,
Gündüzləri günəşli,
Gecələri işıqlı,
Küçələri tər-təmiz,
Sanki ləpələriylə
Onu yalayır dəniz.
Binalar qatar-qatar,
Binalar gözəl-gözəl.
Elə bil çatacaqdır
Bakıya uzatsan əl.
Göydə vertalyota bax,
Kəpənəkdir elə bil
Əzizdir hər uşağa
Bu gənc şəhər,
Bu evlər,
Bu yaşıllıq, bu sahil,
Bir də qurub yaradan
Əmək qəhrəmanları!
Sumqayıtlı uşaqlar,
Çalışaq, hər bir işdə
Əvəz edək onları!

Müharibə

MİN BEŞ YÜZ ƏLLİ!..

Dinlə məni, səninləyəm, döyüşçü qardaş
Gün bu gündü, ay bu aydı, bir il əzəldi.
Sevincimdən haman o gün titrədi dağ-daş,
Məğrur başım buludları doğradı-dəldi!
Al bayrağın qarşısında dizə çöküb mən,
Peyman etdim, odlu sözlər çıxdı dilimdən.

O gün mənə zabitimiz, – mübarək! – deyə,
Əllərimi dönə-dönə sıxdı ürəkdən.
Yaraşıqlı bir ulduz da etdi hədiyyə,
Söylədi ki: – bundan belə döyüşçüsən sən!..

Silahları payladılar; mənim tüfəngim,
Ayna kimi şəfəq saçdı, gözüm qamaşdı,
Heyrətimdən, sevincimdən dəyişdi rəngim,
Gözlərimə əvvəlcə bir rəqəm sataşdı.
Bir kənara çəkilərək, baxdım əməlli,
Tüfəngimin nömrəsiydi: min beş yüz əlli!

Dinlə məni, səninləyəm, döyüşçü qardaş:
Çox çəkmədi, bir gün mən də girişdim hərbə.
Toza döndü qarşımızda hər qaya, hər daş,
Tüfəngimlə tamamladı zərbəni-zərbə.
O mənimlə sirdaş oldu çətində, darda,
O mənimlə bir yeridi qasırğalarda!

Bir gün oldu, yaralandım vuruşmalarda,
O vəfalı silahıma dedim əlvida!..
Hər an onu min həsrətlə salarkən yada,

Deyirəm ki, uzaq olsun ondan hər qada!
O mənimlə hər döyüşdə yardı cəbhələr,
O mənimçin qiymətlidir bəbəyim qədər!

Kim bilir ki, bəlkə də o səndədir, ey dost
Bu sözümü yaxşı eşit, sanma giley, dost;
O silahla düşmənin bağrını teylə;
Əziz dostum, hər döyüşdə məni yad eylə!..
Bilirəm ki, o sənincün candan şirindir;

Muğayat ol, əziz qardaş, o yarağından!
Unutma ki, haman silah bir əsgərindir,
Onun qəlbi fərəhlənir hər sorağından.
Yaxşı vuruş, mən sevinim, tapım təsəlli,
Silahımın adı budur: min beş yüz olli!

XATİRAT

I

Bəzən dalıb xəyalata, düşündükcə səni mən
Xatirələr gəlib keçir səhnə-səhnə gözümdən.
Qarlı çöllər, düzənlər də gəlib düşür yadıma
Qan gölündə üzənlər də gəlib düşür yadıma...
Yadımdadır: Bir gün axşam, göyün üzü dumandı:
Təbiətin hər tərəfi, çölü, düzü dumandı,
Haman gecə yadımdadır, bir ad çıxdı dilindən,
Gərək ki, sən o gün məktub almışdın sevgilindən.
Sən məktubu dönə-dönə, min həsrətlə oxudun,
Ürəyində aşıb-daşan məhəbbətlə oxudun.
Çox düşündün dərdli-dərdli, sonra dedin: –
Komandir!
Xahişim var, mənə bir az kömək edin, komandir!
Deyirlər ki, şairsiniz, üç-dörd kəlmə söz yazın.
Mən köçürüm bu dəqiqə məktubuna Ayazın.
– Ayaz kimdir? Anandırmı?

– Bağışlayın. Sevgilim...
Ayrıldığım gündən bəri tamam olur bir ilim.
Necə olsa, şair sözu incə olar, bilirəm,
Hər kəlməsi ürək açan qönçə olar, bilirəm.
Yazarsanmı, ay komandir, bax kağız da tapmışam.
Şeri buna köçürməkçün ağ kağız da tapmışam.
– Sabah səhər, yaxşımı? Gəl postlara bir baş çəkək,
Buralarda gecə gəzmək qorxuludur indi tək...
– Nəsib, dünən məktubunu yolladınmı Ayaza?
– Məktub nədir, ay komandir, baxırsanmı ayaza?
Qoy bu gün bu kəndə girək tonqal qurub qızarıq,
Ayazın da məktubunu qayda ilə yazarıq.
Heç olmasa mən də yazım məktubumda özümdən,
Ki, bir nəfər alman belə yayınmamış gözümdən,
Yoxsa deyər, qorxur Nəsib vuruşmadan, döyüşdən...
Bu mənimçün daha pisdir, ay komandir, söyüşdən,
Qoy bu gün bu kəndi alaq, tonqal qurub qızarıq,
Ayazın da məktubunu qayda ilə yazarıq.

II

Ara qızdı, ac güllələr şığıdılar başlara,
Od mərmilər işlədikcə torpaqlara, daşlara.
Qoç oğlanlar süründülər bir-birinin yerinə,
Bu döyüşdə dayanmağın mənası nə, yeri nə?!
Hamı coşdu – Vətən! – deyə irəliyə atıldı.
Nəsib dedi:
Mən gedirəm!
Onun qaşı çatıldı...
– Hara belə?
– İcazə ver, komandir,
Bircə bax gör, komandir!
Sağ cinahda altı tank var, arxamıza keçərlər
Amandır ki, yoldaşları oda tutub biçərlər.
İcazə ver, məhrum etmə bu döyüşdən məni sən,
Əmin ol ki, Nəsibdən şad xəbər eşidəcəksən...